# Müstəqil Azərbaycanın hakim siyasi qüvvəsi

***Azərbaycan gözəl və zəngin ölkə, onun əhalisi xöşbəxt xalqdır. Üstəlik, həmişə çətin vəziyytdə tarixi şəxsiyyətlər meydana çıxıb xalqı öz ardınca aparır, ölkəni ağır durumdan xilas edirlər. XX əsrin doxsanıncı illərində də çox mürəkkəb bir zamanda ziyalıların təşəbbüsü yaranan Yeni Azərbaycan Partiyası ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi qısa müddətdə ölkəni fəlakətdən xilas edib, sabirlik və inkişaf yoluna yönəltdi, xalqın böyük etimadını qazandı.***



Ölkəmizdə ictimai-siyasi sabitliyin gərgin olduğu, anarxiya və xaosun tüğyan etdiyi həmin günlərdə və aylarda ulu öndər Heydər Əliyevin banisi olduğu, xalqın inandığı və etibar etdiyi YAP zamanın tələbindən, tarixi zərurətdən yarandı. Bu elə bir zaman idi ki, yenicə müstəqillik qazanan, ancaq səriştəsiz rəhbərlərin uçuruma apardığı Azərbaycanda Yeni Azərbaycan Partiyası xalqın yeganə ümid yeri oldu, dövlətçiliyin keşiyində dayanan siyasi qüvvəyə çevrildi.

XX əsrin 90-cı illərin əvvəllərində tez-tez hakimiyyət dəyişiklikləri və daxili siyasi qarşıdurmanın dərinləşməsi nəticəsində ölkə böhran vəziyyətində idi. Cəmiyyət ümumxalq inamına layiq olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də ulu öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə ziyalılar ona müraciət ünvanladılar. Yaranmış bu siyasi partiya vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynadı. Həmin dövrdə bu təşkilata üzv olmaq elə də asan deyildi. Lakin bütün çətinliklərə baxmayaraq partiya öz fəaliyyətini davam etdirdi, Vətəni, xalqı düşdüyü mürəkkəb vəziyyətdən xilas etdi.

Ötən illərdə Yeni Azərbaycan Partiyası böyük və şərəfli bir yol keçərək birbirindən əhəmiyyətli uğurlara imza atmışdır. Partiya Azərbaycan dövlətçiliyinin qorunmasında, sabitliyin və demokratik dəyərlərin bərqərar edilməsində mühüm rol oynamışdır. Ümummilli lider Heydər Əliyev ölkədə iqtisadi və siyasi islahatların həyata keçirilməsi üçün, ilk növbədə, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirdi. Böyük rəhbər çıxışlarında deyirdi: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar".

Bu mənada Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirmək olar. Ulu öndərin rəhbərliyi və bu partiyanın fəal iştirakı ilə 1993–2003-cü illərdə həyata keçirilən islahatlar nəticəsində müasir Azərbaycan dövlətinin formalaşması prosesinin ilkin mərhələsi başa çatdı. Daha sonra Azərbaycan hüquqi, iqtisadi, siyasi və hərbi cəhətdən daha da gücləndirilmiş dövlətdən regional və subregional təsir mexanizmlərinə malik dövlət modelinə keçməsi sahəsində qlobal təşəbbüslər irəli sürüldü.

Sonrakı illərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə islahatların konseptual əsasları–yeni Strateji Yol Xəritəsi hazırlanaraq həyata keçirilməyə başlandı. İslahatların ilkin dönəmində aparılan araşdırmalar və təhlillər nəticəsində prosesə manea yaradan bütün neqativ amillər də üzə çıxdı. Bu isə öz növbəsində, islahatların daha da sürətlənməsinə və genişlənməsinə zəmin yaratdı. Prezident İlham Əliyevin dediyi kimi, "Heç bir vətəndaş diqqətdən, qayğıdan kənarda qalmamalıdır, hər kəsin hüquqları qorunmalıdır". Bu sahədə aparılan dövlət siyasətini insanlar da müsbət qarşılayırlar. Məmur – vətəndaş münasibətlərində şəffaflığın təmin edilməsi, korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi bu siyasətin ən bariz nümunəsidir. Ölkədə aparılan siyasi-hüquqi islahatların və icra hakimiyyəti ilə qanunverici hakimiyyət arasında əməkdaşlığın əsasında da vətəndaş məmnunluğu, xidmətlərə əlçatanlıq, hər bir kəsin bütün hüquqlarından istifadə edə bilməsi və bu sahədə bərabər imkanların yaranması və digər amillər dayanır.

Ötən 30 ildə ictimai həyatın bütün sahələrində ciddi tarixi nailiyyətlər əldə edilmişdir. Həyata keçirilən regional və qlobal layihələr Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı. Müxtəlif sahələrdə baş verən yeniliklər, xarici dövlətlərlə yaradılan dostluq və əməkdaşlıq münasibətləri, iqtisadi göstəricilər müstəqillik illərinin uğurlarıdır.

Ölkəmizin inkişafı, regionda artan nüfuzumuz bizə daha böyük ruh yüksəkliyi və enerji verir.

Bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı siyasət nəticəsində ölkəmizin müasirləşməsi, daha da inkişaf etməsi üçün partiya üzvləri də xüsusi fəallıq göstərirlər. Partiyanın sədri, möhtərəm Prezidentimiz cənab İlham Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası sözün əsl mənasında ümumxalq partiyasıdır. Əminəm ki, növbəti illərdə də partiyamız liderlik qabiliyyətini özündə saxlayacaqdır. Bu partiya Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir". İndi Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP-ın getdikcə güclənən fəaliyyəti Azərbaycanın bundan sonra da hərtərəfli inkişafında böyük imkanlara yol açır.

Müstəqil Azərbaycanın daha da inkişaf edib çiçəklənməsi istiqamətində mühüm addımlar atılır. Fəxr edirik ki, biz bu yubiley tədbirlərini artıq qalib xalq kimi qeyd edirik. Partiyanın Sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz erməni işğalına son qoydu. Ədaləti bərpa edildi, BMT qətnamələrinin tələbləri ölkəmizin öz gücünə yerinə yetirildi.

30 illik yubileyini qeyd edən partiyamız təkcə bu günlə yox, həm də daha çox gələcəklə yaşayır. Ulu öndər Heydər Əliyevin dediyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Partiyamız yeni çağırışlara adekvat cavab verir. Son qurultayda həm Nizamnamədə, həm strukturda aparılan islahatlar bir daha göstərdi ki, partiyamız davamlı olaraq yeniləşir, güclənir, üstün çevikliyi ilə seçilir. Bu gün Prezident, Partiya Sədri İlham Əliyevin yeni ideyaları, müdrik tapşırıqları ilə partiyanın fəaliyyəti daha da güclənir, yeni islahatlar keçirilir, günün tələblərinə cavab verir.

Cəmiyyətin ictimai-siyasi prioritetlərindən biri də gender təşəbbüsləridir. Bu mənada Yeni Azərbaycan Partiyası digər partiyalara yaxşı nümunədir. Partiyanın struktur tərkibində gender məsələləri üzrə şöbə fəaliyyət göstərən ayrıca şöbə mühüm və maraqlı layihələr həyata keçirir. Digər gözəl nümunə ulu öndərin adını daşıyan Fondun yaradıcısı, Respublikanın Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Mehriban xanım Əliyevanın misilsiz fəaliyyətidir. Onun həyata keçirdiyi layihələrlə Azərbaycan qadın hərəkatının tarixində yeni mərhələ açılmışdır.

İstər şəxsi həyatı, istər ictimai fəaliyyəti ilə hamıya örnək olan Mehriban xanım milli-mənəvi dəyərlərimizin, xalqımızın xeyriyyəçilik ənənələrinin qoruyucusu kimi cəmiyyətdə böyük nüfuz qazanmışdır. COVİD-19 pandemiyası, 44 gün Vətən Müharibəsi zamanı Mehriban xanım aztəminatlı və həssas ailələrə, şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına və zərər çəkmiş insanlara öz dəstəyini göstərir, onları diqqətdən kənarda qoymurdu. Fond bu gün də həmin insanlara eyni qayğı və şəfqət göstərir. Partiya üzvlərimiz də bu prosesdən kənarda qalmırlar.

Bu gün Azərbaycan milli inkişafın yeni mərhələsindədir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərdən, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasından sonra dövlətimizin qarşısında yeni vəzifələr durur. Hazırkı dövrün reallıqlarına uyğun olaraq, davamlı sülhün təmin olunması və kommunikasiyaların açılması, yeni iqtisadi və sosial infrastrukturun yaradılmas, eyni zamanda, mövcud infrastrukturun müasirləşdirilməsi, Ermənistanın məsuliyyətə cəlb olunması, sosial siyasətin daha da gücləndirilməsi, dövləti təşviqi ilə iqtisadiyyatın canlandırılması və şaxələndirilməsi, əhalinin böyük qayıdışının təmin edilməsi zəruri hədəflərdir. Çevik dövlət idarəetmə modelinin tətbiq edilməsi, Qarabağ həqiqətlərinin yayılması və tanıdılması,ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, yaşayış məntəqələrinin planlı surətdə bərpası, milli həmrəyliyin, Azərbaycanın beynəlxalq arenada və qlobal informasiya müstəvisində mövqeyinin daha da gücləndirilməsi, tarixi Qələbənin nəticələrinin möhkəmləndirilməsi və digər milli məqsədlər kimi strateji prioritetlərimiz var.

Hakim və alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının da bu istiqamətdə üzərinə mühüm vəzifə və məsuliyyət düşür. Bütün bu vəzifə və öhdəliklər bizi daha fəal və təşəbbüskar olmağa, peşəkarlıq səviyyəmizi artırmağa, layiqli vətəndaşlar yetirməyə səsləyir. İnanırıq ki, Azərbaycan xalqını xoş gələcəyə aparan bu siyasət bundan sonra da uğurla davam etdiriləcəkdir.

**Hicran HÜSEYNOVA,**
**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor**